UOT 78
https://doi.org/10.59849/2311-8482.2024.2.131

**ZƏMİNƏ NƏCƏFOVA***

# KAMANÇA ALƏTİNİN İFAÇILIQ İMKANLARININ İNKİŞAFINDA USTAD İFAÇILARIN ROLU

*Azərbaycan musiqi mədəniyyətinin maraqlı sahələrindən biri də ifaçılıq sənətidir. Xalq musiqisinin qədim və zəngin ənənələri üzərində qurulmuş ifaçılıq sənətinin tarixi əhəmiyyəti çox böyükdür. Tarixi abidələr üzərində həkk olunmuş rəsmlərdən, miniatürlərdən və digər qədim mənbələrdən aydın olur ki, ifaçılıq sənəti bütün dövrlərdə sevimli və sayğılı sənət sahəsi olmuşdur.*

*Məlum olduğu kimi, ifaçılıq sənəti bədii yaradıcılıq fəaliyyətinin əsas növlərindən biridir. İncəsənətin başqa növlərindən (rəssamlıq, heykəltəraşlıq və s.) fərqli olaraq musiqi sənəti özünün ikinci dəfə yaradılmasına möhtacdır. Yəni musiqinin real varlığı üçün müəllif ilə dinləyici arasında ikinci bir yaradıcı qüvvənin də fəaliyyəti zəruridir ki, bu da ifaçıdan ibarətdir. İfaçı, yəni bəstələnmiş musiqi əsərini səsləndirən şəxs (nəğməkar, çalğıçı) olmasa, musiqi cansız bir şeydən ibarət olaraq qalar.Bəşəriyyətin yaşı qədər tarixi olan musiqi insanlığın kəşf etdiyi ən əsrarəngiz dəyərlərdəndir. Gözəl musiqilərin səsləndirilməsi üçün hər bir xalq öz ruhuna uygun musiqi aləti kəşf edib. Beləliklə, çox sayda sirli, sehirli musiqi alətləri yaranıb ki, bunlardan biri  də səsilə insan qəlbinin tellərini titrədən, sanki ana laylasını xatırladan kamançadır.Azərbaycanda kamançanın müxtəlif dövrlərdə yaşamış bir sıra virtuoz ifaçıları olub. Məsələn, Mirzə Məhəmməd Kamançayi (XVI əsr), Qaraçı Hacıbəy (XVIII əsr), Məşədi Məlikməmməd Ağasalah oğlu (1838-1909, tarzən kimi tanınsa da kamança, tütək  və qarmon alətlərini də eyni dərəcədə məharətlə çalıb). Bundan əlavə XIX əsrin II yarısı, XX əsrin əvvəllərində yaşamış Məşədi Qulu Əlizadə, Mirzə bəy, Rasim Şirinov, Şuşalı Böyükkişi Əliyev, Məşədi Cəmil Kərbəlayi Aslan oğlu Əmirovun adını qeyd edə bilərik.XX əsrin əvvəllərindən başlayaraq İsmayıl Talışınski, Hafiz Mirzəyev, Fərhad Dadaşov, Firuz Əlizadə, Qılman Salahov, Mütəllim Novruzov, Tələt Bakıxanov, Elman Bədəlov, Əliguşad Məmmədov, Habil Əliyev, Ədalət Vəzirov, Şəfiqə Eyvazova, Mirnazim Əsədullayev, Munis Şərifov, Ağacəbrayıl Abasəliyev, Fəxrəddin Dadaşov,Elnur Əhmədov, Elşən Mansurov,  Vidadi Paşayev, İmamyar Həsənov və digər kamança ifaçılarının adlarını qeyd etmək olar.“Kamança alətinin ifaçılıq imkanlarının inkişafında ustad ifaçıların rolu” adlı məqalədə dinləyicini düşündürməyi bacaran Habil Əliyev, öz lirik, incə və səmimi ifası ilə seçilən Şəfiqə Eyvazova,  texniki ustalığı və incə musiqi hissiyyatı ilə dinləyicilərin rəğbətini qazanmış Fəxrəddin Dadaşov və tələbələrinin səmimi dostu olan ifaçı-pedaqoq Elnur Əhmədovun ifaçılıq xüsusiyyətləri və onların kamança ifaçılığının inkişafında xidmətləri əsaslı şəkildə araşdırılmışdır.*

***Açar  sözlər:** Azərbaycan, musiqi, xalq, çalğı, alət,  kamança, ifaçı, Habil Əliyev, Şəfiqə Eyvazova,  Fəxrəddin  Dadaşov, Elnur  Əhmədov, sənətkar, ustad*

**Giriş**

Azərbaycan musiqi mədəniyyətinin maraqlı sahələrindən biri də ifaçılıq sənətidir. Xalq musiqisinin qədim və zəngin ənənələri üzərində qurulmuş ifaçılıq sənətinin tarixi əhəmiyyəti çox böyükdür. Tarixi abidələr üzərində həkk olunmuş rəsmlərdən, miniatürlərdən və digər qədim mənbələrdən aydın olur ki, ifaçılıq sənəti bütün dövrlərdə sevimli və sayğılı sənət sahəsi olmuşdur.

Məlum olduğu kimi, ifaçılıq sənəti bədii yaradıcılıq fəaliyyətinin əsas növlərindən biridir. İncəsənətin başqa növlərindən (rəssamlıq, heykəltəraşlıq və s.) fərqli olaraq musiqi sənəti özünün ikinci dəfə yaradılmasına möhtacdır. Yəni musiqinin real varlığı üçün müəllif ilə dinləyici arasında ikinci bir yaradıcı qüvvənin də fəaliyyəti zəruridir ki, bu da ifaçıdan ibarətdir. İfaçı, yəni bəstələnmiş musiqi əsərini səsləndirən şəxs (nəğməkar, çalğıçı) olmasa, musiqi cansız bir şeydən ibarət olaraq qalar.

Bəşəriyyətin yaşı qədər tarixi olan musiqi insanlığın kəşf etdiyi ən əsrarəngiz dəyərlərdəndir.

Gözəl musiqilərin səsləndirilməsi üçün hər bir xalq öz ruhuna uygun musiqi aləti kəşf edib. Beləliklə, çox sayda sirli, sehirli musiqi alətləri yaranıb ki, bunlardan biri səsilə insan qəlbinin tellərini titrədən, sanki ana laylasını xatırladan kamançadır.

Bu musiqi alətinin yaranması ilə bağlı tarixdə rəvayətlər dolaşmaqdadır. Əfsanəyə görə, min illər öncə göylər padşahı qartal bir ceyranı parçalayaraq onun bağırsaqlarını caynağına alıb ağacın başına atır. Bağırsaq budaqlara ilişir, isti günəş altında quruyub tarıma çəkilir, incəlir. Şiddətli küləyin təsirilə budaqlar ona toxunur, bu zaman əsrarəngiz səslər yaranır. Beləcə, günlər keçir, küləyin yaratdığı bu ecazkar səs hər kəsin zövqünü oxşayır. Günlərin bir günü külək dayanır, musiqi kəsilir. Bu ecazkar səs üçün insan övladı darıxmağa başlayır. Beləliklə, kamança musiqi aləti yaranır. Bu əfsanədə həqiqətə uyğun bir fakt vardır. Doğrudan da tarixən simli calğı alətlərinin gövdəsi, qolu və kəlləsi müxtəlif ağac növlərindən, simləri və qoluna bağlanmış pərdələri isə heyvan bağırsağından hazırlanır.

Üzeyir Hacıbəylinin "melodik alətlərin ən gözəli" adlandırdığı kamança kamanla çalınan simli musiqi alətidir. Müxtəlif növləri Sərq və Orta Asiya xalqları arasında geniş yayılmışdır. Kamança Azərbaycan muğamlarının ifasında əsas olan üçlüyə daxildir. Bu musiqi alətinin yüksək inkişafı xanəndəlik sənətinin inkişafı ilə bağlı olub və bu da əsasən XIX əsrin ikinci yarısına təsadüf edir. İlk örnəkləri balqabaqdan və hind qozundan hazırlanıb, fil sümüyü ilə bəzədilibmiş. Bir və iki simli qədim kamançanın diz üstdə çalınan yaylı qopuzdan formalaşdıgı güman edilir.

Professor Səadət Abdullayeva qeyd edir: "Azərbaycanın bəzi rayonlarında kamançaya vizqan (Şuşa, Şərur), mizqan (Cəbrayıl, Şəki), mizqon (Tovuz), miskan (Quba) deyirlər" [1].

Son dərəcə təsirli səsə malik kamançada lirik musiqilərin ifası xüsusilə gözəl alınır. Kamançadan həm solo, həm də ansamblın tərkibində istifadə olunur. Amma instrumental muğamların kamançada solo ifası daha geniş yayılıb. Azərbaycanda bu musiqi alətinin məhşur ifaçıları vardır.Azərbaycanda kamançanın müxtəlif dövrlərdə yaşamış bir sıra virtuoz ifaçıları olub. Məsələn, Mirzə Məhəmməd Kamançayi (XVI əsr), Qaraçı Hacıbəy (XVIII əsr), Məşədi Məlikməmməd Ağasalah oğlu (1838-1909, tarzən kimi tanınsa da kamança, tütək və qarmon alətlərini də eyni dərəcədə məharətlə çalıb). Bundan əlavə XIX əsrin II yarısı, XX əsrin əvvəllərində yaşamış Məşədi Qulu Əlizadə, Mirzə bəy, Rasim Şirinov, Şuşalı Böyükkişi Əliyev, Məşədi Cəmil Kərbəlayi Aslan oğlu Əmirovun adını qeyd edə bilərik. Qeyd edək ki, Məşədi Cəmil çoxşaxəli sənətkar olmuşdur. O, əsasən tar çalıb, həmçinin xanəndəlik edib. Bundan əlavə qarmon, skripka, fortepiano, ud, qanunla bərabər gözəl kamança da çalırmış. Cənubi Azərbyacandan olan sənətkarlardan Ərdəbilli Mirzə Səttar və Tehranlı Bağırxanın adını qeyd edə bilərik.

Maraqlı fakt kimi onu da qeyd etmək olar ki, bir sıra tanınmış xanəndə və tarzənlər eyni zamanda gözəl kamança ifa ediblər. Daha dəqiq desək onlar xanəndəlikdən və ya tarzənlikdən əvvəl kamança çalmağı öyrəniblər. Belə ki, Mirzə Muxtarın atası Mirzə Əli Əsgər Qarabaği (tarzən-xanəndə), tarçalan Mirzə Sadıq Əsəd oğlu məhz belə ifaçılardan olmuşdur.

Bundan əlavə tanınmış xanəndə Ramiz Hacıyev, müğənni Şövkət Ələkbərova, bəstəkar Ramiz Mirişli, müğənni Yaşar Səfərov da bir zamanlar kamança ifa etmişdirlər.

Həmçinin böyük dramaturq, yazıçı, Cəlil Məmmədquluzadə haqqında musiqi tənqidçisi Firudin Şuşinski yazırdı: "Mirzə Cəlil musiqi həvəskarı olduğundan o, özü də yaxşı tütək, ney və kamança çalırdı" [11].

XX əsrin əvvəllərindən başlayaraq İsmayıl Talışınski, Hafiz Mirzəyev, Fərhad Dadaşov, Firuz Əlizadə, Qılman Salahov, Mütəllim Novruzov, Tələt Bakıxanov, Elman Bədəlov, Əliguşad Məmmədov, Habil Əliyev, Ədalət Vəzirov, Şəfiqə Eyvazova, Mirnazim Əsədullayev, Munis Şərifov, Ağacəbrayıl Abasəliyev,Fəxrəddin Dadaşov,Elnur Əhmədov, Elşən Mansurov, Vidadi Paşayev, İmamyar Həsənov və digər kamança ifaçılarının adlarını qeyd etmək olar.

Dinləyicini düşündürməyi bacaran Habil Əliyev, öz lirik, incə və səmimi ifası ilə seçilən Şəfiqə Eyvazova, texniki ustalığı və incə musiqi hissiyyatı ilə dinləyicilərin rəğbətini qazanmış Fəxrəddin Dadaşov və tələbələrinin səmimi dostu olan ifaçı-pedaqoq Elnur Əhmədovun ifaçılıq xüsusiyyətləri və onların kamança ifaçılığının inkişafında xidmətləri tədqiqatda əsaslı şəkildə araşdırılmışdır.

**Orta əsrlərdə Azərbaycanda kamança ifacıları**

Azərbaycanda müxtəlif dövrlərdə yaşamış bir sıra ustad kamança ifaçıları yetişmişdir. Orta

əsrlərdən bu günümüzə qədər mərhələlərlə ən mühüm kamança çalanların ifaçılıq fəaliyyətlərinə diqqət yetirək. Mənbələrə istinadən məlum olur ki, XI əsrin sonu, XII əsrin I yarısında yaşayıbyaratmış Azərbaycanın dahi şairi Məhsəti Gəncəvi çəng və rübabla yanaşı, həm də mahir kamança ifaçısı olmuşdur.

Orta əsrlərdə bir çox Azərbaycan sənətkarları müəyyən səbəbdən xarici ölkələrdə, xüsusən Şərq ölkələrində fəaliyyət göstərmişlər. Onların əksəriyyəti müharibələr zamanı əsir götürülərək xarici ölkələrə aparılmış və bu sənətkarlar qalib tərəfin ərazisindəki saraylarda işləmişlər. Bununla bağlı musiqişünas Sürəyya Ağayeva maraqlı araşdırmalar aparmışdır. O, “Orta əsr mənbələri XVI-XVII əsr Azərbaycan musiqiçiləri haqqında” adlı məqaləsində dövrünün məşhur ud çalanıZeynalabdin Azəri Əvvaddan söhbət açır.O, Cənubi Azərbaycandan Osmanlı Türkiyəsinə Sultan II Bəyazidin oğlu Şahzadə Əhmədin (1481-1511) dəvəti ilə gəlmişdi. Zeynalabdin Azəri Əvvadın şagirdi Hüseyn Əvvad da tanınmış ud və kamança ifaçısı idi.Burada bir məqama diqqət yetirmək lazımdır. Bildiyimiz kimi, ud və kamança çalğı alətləri müxtəlif üsulla səsləndirilir. Hər ikisi telli (xordofonlu) çalğı alətləri olsa da, onların ümumi, bənzər cəhətləri də vardır. Bu da hər iki alətin qolunda pərdələrin yoxluğudur. Yəni, belə alətlər səsləndirilən zaman ifaçı son dərəcə diqqətli olmalıdır. Barmaq telin üzərində tələb olunan yerdən azacıq aşağı, yaxud yuxarı qoyularsa, ifada naqislik yaranacaqdır.

Bu baxımdan pərdəsiz çalğı alətlərinin ifaçılarının musiqi duyumu yüksək səviyyədə olmalıdır. Əgər ifaçı deyilən tələblərə cavab verərsə, onun ifası mükəmməl alınacaqdır. Bu işdə vərdişlərin də böyük rolu olur. S.Ağayeva həmçinin Osmanlı sultanı Yavuz Səlimin (1512-1520) Çaldıran döyüşündə (23 avqust 1514-cü il) Səfəvi şahı I İsmayılın (1501-1524) ordusu üzərindəki qələbəsindən sonra da Təbrizdən xeyli rəssam, memar, musiqiçi, incəsənət xadimi əsir götürərək Anadoluya apardıqlarını bildirir. S.Ağayeva həmin məqaləsində musiqiçi əsirlərin arasında bir çox kamança çalanların da olduğunu qeyd edir. Onlardan ustad kamança ifaçıları Şahqulu və onun oğlu Heydərin adlarını çəkir. Bu musiqiçilər “Cəmaəte-mütriban” adlanan saray orkestrində peşəkar ifalarına görə, yüksək mövqe tutmuşdular.

O dövrlərdə ən ustad sənətkara çaldığı alətin adı ləqəb kimi verilərdi. Bu da hər sənətkara nəsib olmurdu. S.Onullahi “Qədim Təbrizin mədəniyyət tarixindən (X-XVII əsrlərdə)” məqaləsində XVI əsrin ən güclü musiqiçilərinin adlarını qeyd edərkən onların çalğı alətlərini də ləqəb (ayama) kimi göstərir: Qütbəddin Nayi (neyçalan), Həbib Udi (ud çalan), Əsəd Sornai və Ustad Şah Məhəmməd Sornai (surna çalanlar), Mövlana Qasım Qanuni (qanun çalan), Sultan Məhəmməd Çəngi (çəng çalan), Mirzə Məhəmməd Kamançayi və Ustad Məsum Kamançayi (kamança çalanlar) və başqaları [4].

Mirzə Məhəmməd Kamançayi və eləcə də digər instrumental ifaçılar (Zurnaçı Ustad Həsən, Udçalan Ustad Qulu bəy Hüseynin oğlu Məhəmməd Mömin, Ustad Məsum Kamançayi, Ustad Sultan Mahmud Tənburə, Mirzə Hüseyn Tənburə, Ustad Sultan Məhəmməd Çəngi və başqaları) haqqında Azərbaycanın tanımlı tarixçi-şairi İsgəndər Münşi (1560/61-1634) “Tarix-i aləmara-yi Abbasi” (tərcüməsi: “Abbasın dünyanı bəzəyən tarixi”) adlı əsərində “Xoş avazlıların, mütrüblərin və nəğmə əhlinin adları” məqaləsində geniş məlumat vermişdir.

İ.Münşi Mirzə Məhəmməd Kamançayi haqqında yazır:“Sazəndələr zümrəsindən Mirzə Məhəmməd Kamançayi əvəzsiz sazəndə idi. (Kamançadan savayı), həm də ud çalardı. İsmayıl Mirzə(burada II Şah İsmayıl nəzərdə tutulur – T.Ə.) zamanında xidmətə daxil olub, həmtaylarından və həmkarlarından üstün oldu” (Türkman, 2009, s.391). Mütəxəssislər Mirzə Məhəmməd Kamançayinin 1576-1577-ci illərdə hakimiyyətdə olmuş II Şah İsmayılın xüsusi kamançaçalanı olduğunu da bildirirlər. Göründüyü kimi mənbədə Mirzə Məhəmməd Kamançayinin həm də gözəl ud çalması vurğulanır [12].

Ümumiyyətlə, araşdırmalar apararkən bir sıra kamançaçıların həm də gözəl ud çalmaqlarını müşahidə edirik. Bu da hər iki alətin qolunda pərdələrin olmaması ilə əsaslandırılır. Baxmayaraq ki, kamnça və ud fərqli üsullarla səsləndirilir: kamança kamanla, ud isə mizrabla. İsgəndər Münşi adı çəkilən əsərində XVI əsrdə yaşamış digər tanınmış kamança çalan Ustad Məsum Kamançayinin (bəzi mənbələrdə yanlış olaraq Məsud adı ilə təqdim olunur) da adını qeyd edir: Mənbədən məlum olur ki, Ustad Məsum Vəramin bölgəsinin sayılıb-seçilən və sevilən sənətkarı kimi elin toy-düyünündə iştirak etmiş, sazəndəliklə məşğul olmuşdur. Məsumun qardaşlarının da musiqiçi olduğu vurğulanır, lakin ifaçılıq səviyyəsinə görə onlardan çox üstün imiş. Məhz peşəkar ifasına görə xalq onu Ustad

Məsum Kamançayi adlandırmışdır.

Orta əsrlərdə yaşamış Məhsəti Gəncəvi (XI əsrin sonu, XII əsrin I yarısı), Hüseyn Əvvad(XV əsrin sonu, XVI əsrin I yarısı), Şahqulu, onun oğlu Heydər (XVI əsrin I yarısı), Mirzə Məhəmməd Kamançayi və Ustad Məsum Kamançayi (XVI əsrin sonu, XVII əsrin əvvəli) kimi ifaçılardan sonra ən məşhur kamançacalan Qaraçı Hacıbəy olmuşdur. O, XVIII əsrdə yaşamış və ifaçılıq fəaliyyəti göstərmişdir. Qaraçı Hacıbəy haqqında tanınmış musiqi tədqiqatçısı Firudin Şuşinski(1925-1997) "Azərbaycan xalq musiqiçiləri" əsərində bir sıra oçerklərdə məlumat verir [11].

İti biləngə, yüksək texnikaya malik olan Qaraçı Hacıbəy öz şirin barmaqları ilə dinləyiciləri valeh edirdi. Bu baxımdan Qaraçı Hacıbəy xalqın sevimli sənətkarına çevrilmiş, hər yerdə musiqi xiridarları onun bənzərsiz ifasından söhbət açırdılar.

Bir sıra fərqli alətlərin ifaçıları həm də gözəl kamança çalmışlar. Onlardan Mansurovların məşhur bir nümayəndəsi olan Məşədi Məlik-məmməd Ağasalah oğlunun (1838-1909) adını qeyd edə bilərik. Məşədi Məlik kamança çalmağı müasiri Ərdəbilli Mirzə Səttardan (1844-1922) öyrənmişdir. 1879-cu ildən 1887-ci ilə qədər Məşədi Məlikin evində qalan Mirzə Səttar ona kamança çalmağın sirlərini öyrədir. Məşədi Məlik 41 yaşında olarkən kamança ifa etməyə həvəs göstərir. Doğrudur, Məşədi Məlik əsasən, tar ifaçılığı ilə məşğul olurdu. Lakin bəzi məqamlarda müxtəlif tarzənləri kamançada müşayiət edirdi. Məşədi Məlik nəinki tarı, kamançanı, eləcə də telli alətlərdən kəskin fərqlənən, tam bambaşqa üsulla səsləndirilən tütək və qarmon çalğı alətlərini də eyni məharətlə səsləndirirdi. Həmin çalğı alətlərində mükəmməl ifa etməsi Məşədi Məliki dövrünün qüdrətli sənətkarlarından birinə çevirmişdi.

Məşədi Məlikin kamança müəllimi olmuş Mirzə Səttar haqqında görkəmli jurnalist, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Rafael Hüseynov "Min ikinci gecə" əsərində geniş məlumat verir [6]. Cənubi Azərbaycan sənətkarlarından biri olan Ərdəbilli Mirzə Səttar, eləcə də Tehranlı Bağırxan dazəmanəsinin tanımlı kamança ifaçılrı olmuşlar. Apardığımız tədqiqatdan göründüyü kimi, alman səyyah və təbiətşünası Engelbert Kempfer (1651-1716) İsveç səfirliyinin nümayəndəsi kimi XVII əsrin sonunda Azərbaycanda (19 dekabr 1683-cü ildə Şamaxıda, 6-9 yanvar 1684-cü ildə isə Bakıda) olmuşdur. O, yol qeydlərinin "XVII əsr Şərq musiqi mədəniyyəti" adlı fəslində Azərbaycanda rastlaşdığı 23 çalğı alətinin həm rəsmini çəkmiş, həm də bu alətlərin hər biri haqqında ayrıca məlumat vermişdir.

Dövrünün tanınmış sənətkarı, peşəkar kamança ifaçısı Mirzə Səttarın həyat və yaradıcılığı ilə bağlı araşdırmalar apardıqda bir sıra uğurlu nəticələr əldə olundu. R.Hüseynov Mansurovlar məktəbinin layiqli nümayəndəsi, ustad tarzən Məşədi Süleyman Mansurovun (1872-1955) xatirələrinə istinad edərək, Mirzə Səttarın tərcümeyihalı, xarici görkəmi, xarakteri, əlamətləri və ifaçılıq xüsusiyyətləri haqqında məlumat verir [2].

Mirzə Səttar 1844-cü ildə Cənubi Azərbaycanın Ərdəbil şəhərində anadan olmuşdur. O, uşaq yaşlarından kamança çalmağı öyrənmişdir. Mirzə Səttar gecə-gündüz, yorulmaq bilmədən kamança çalır, məşq edərmiş. Qonşuluğunda yaşayan Mirsaleh adlı bir müctəhid musiqini sevmədiyindən Mirzə Səttarı Ərdəbildən didərgin salır. Mirzə Səttar Ərdəbildən Nəmin şəhərinə gedir. 1879-cu ildə Mirzə Səttar Bakıya köçür. Burada Məşədi Məlikgilə pənah gətirir. 1887-ci ilə qədər onun evində yaşayır. Bu illərdə qeyd edildiyi kimi, Məşədi Məlik Mirzə Səttardan kamança çalmağın sirlərini öyrənir. Mirzə Səttar təkcə mahir ifaçı deyildi. O, intellektual səviyyəsinə görə də həmkarlarından və yaşıdlarından xeyli seçilirdi.

Mirzə Səttarın kamançası da digərlərindən fərqlənirdi. Alətinin çanağının ölçüləri normaldan bir yarım (1,5) dəfə böyük idi. Onun kamançasının qolu da uzun idi. Alətə uyğun olaraq qəmçili (əski azər-türkcə – kaman, yay) də uzun imiş. Çanağın üzərindən ağ və qara sümükdən zolaqlar işlənilmişdi. Bu da alətə xüsusi gözəllik verirdi. Mirzə Səttarın kamançası sökülüb-yığılırdı. Yəni qol çanağa vint ilə bağlanırmış. Aşıxlar da vintlə açılıb-bağlanırdı. Mirzə Səttar ifa etmədikdə kamançanı söküb, torbasına ("köynəyi"nə) qoyurdu.

Qeyd edək ki, orta əsrlərdə yaşayıb yaratmış kamança ifaçılarının yaradıcılığı çox böyük vüsətlə XIX-XX əsrdə yaşayəb yaratmış ifaçıların yaradıcılığında davam olunmuşdur. Hal hazırda təqdim edilən ifaçıların hərəsinin özünəməxsus dəst-xətti, çalğı üsulları olmuşdur. Kamança ifaçılığından söhbət açdıqda, mütləq muğam sənəti yada salınmalıdır. Azərbaycanda kamança muğam ifaçılığının

ayrılmaz, əsas alətlərindən biridir. Bu səbəbdən muğamlarımızın təşəkkül tapmasında, formalaşmasında və inkişafında kamança çalanlarımızın müstəsna xidmətləri olmuşdur. Bu gün də biz qətiyyətlə deyə bilərik ki, Azərbaycan xalqının həm tarixi keçmişində və həm də bu günündə parlaq kamança ifaçıları yaşayıb və hələ uzun illər yaşayacaqdır.

**Görkəmli kamança ifaçısı, ustad sənətkar Habil Əliyev**

Azərbaycan muğamlarını nəsildən-nəslə varislik yolu ilə ənənəvi şəkildə ötürən sazəndələr vardır ki, onlar hər biri bu şərəfli yolda öz dəst-xətti, ifaçılıq prinsipi ilə seçilən musiqiçilərdən olmuşlar. Belə musiqiçilərimizdən biri də Azərbaycan Respublikasının xalq artisti, "Şöhrət" və "İstiqlal" ordenli ustad sənətkar, mahir kaman ifaçısı Habil Əliyevdir.

Habil Əliyev 28 may 1927-ci ildə Ağdaş rayonunun Üçqovaq kəndində dünyaya göz açmışdır. Ustadın xatirələrindən bəlli olduğu kimi sənətə gəlməyində iki insanın əvəzsiz xidməti olmuşdur. Bunlardan biri Üzeyir Hacıbəylinin yaxın qohumu olan Əhməd Ağdamski, digəri isə anasıdır. 6 yaşlı uşaq saatlarla Əhməd Ağdamskinin tarda olan ifasına qulaq asaraq, ondan mənəvi qida alırdı.

Uşaqlıq illəri Böyük Vətən müharibəsinin (1941-45-ci İllər) qızğın vaxtına düşdüyündən sənətkar çox keşməkeşli və əziyyətli bir dönəmdə yaşamışdır. Balaca Habil müharibənin ağrı-acısına məhəl qoymayaraq saatlarla eyvanlarında əyləşib öz kamança alətində ifa edərmiş. Eyni zamanda təhsilini yarımçıq qoyub erkən yaşlarından el şənliklərində kamança ifa etməyə başlamışdı ki, ailəsinin maddi tələbatını qarşılaya bilsin. Uşaqlıq dostu Fikrətin təkidi ilə Bakıya gəlib 1952-ci ildə Asəf Zeynallı adına musiqi məktəbinə (indiki Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinə uğurla qəbul olur. Burada o, kamança alətinin sirlərini dərindən mənimsəyir.

Tezliklə H.Əliyev 1953-cü ildə tarzən Hacı Məmmədovun dəvəti ilə Filarmoniyaya gəlir. Filarmoniyaya gəlişi sənətkarın peşəkar səhnə fəaliyyətinin başlanğıcı olmaqla yanaşı, səhnədə olan ustadların- Seyid Şuşinski, Xan Şuşinski, Zülfi Adıgözəlov, Şövkət Ələkbərova, Həqiqət Rzayeva, Sara Qədimova və bir çox başqa sənətkarları müşayiət etməklə, onların yaradıcılığından bəhrələnərək ifasının daha da təkmilləşdirilməsi ilə nəticələndi.

Təhsilini bitirdikdən sonra gənc ifaçı tezliklə, yəni 1955-ci ildən Filarmoniyada solist ştatına keçirilir. Bundan sonra onun solo səhnə fəaliyyətində canlanma baş verir. Özünəməxsus ifası ilə dinləyici kütləsinin ürəyini fəth edən Habil durmadan çalışır, ifa texnikasını təkmilləşdirərək kamançada yeni xallar, çalarlar üzərində işləyir, bilik və bacarığını artırmağa başlayır. 1961-ci ildə Azərbaycan Dövlət Televiziyasında ustadın ilk solo konserti oldu. "Segah" muğamının yeni çalarda ifası dinləyici kütləsi, eləcə də, musiqi ifaçıları tərəfindən rəğbətlə qarşılandı. Təsadüfi deyil ki, "Segah" muğamını bir çox ifaçılar səsləndirmişlər. Lakin, ustadın ifa etdiyi "Segah" muğamında başqa çalarlar var. O, "Segah" muğamına yeni nəfəs verərək, öz ürəyini, ifa improvizasiyasını, "melizm", "trel", "qlissando" kimi melodik boyalarını əlavə etməklə Azərbaycan muğam ifaçılıq sənətində "Habil Segaha" möhürünü vurmuşdur.

H.Əliyevin müxtəlif vaxtlarda ifa etdiyi "Segah" muğamını müqayisə etsək hər ifada təkrarsız, misilsiz çalğı, yeni tembr boyaları, yeni çalarlar müşahidə edərik. Bu da təbii ki, ustadın keçdiyi yaradıcılıq yolunun nəticəsidir. "Segah", "Bayatı Qacar", "Rahab", "Bayatı Şiraz" və digər muğamlar sənətkarın idrakından gələn biliyin canlandırılması üçün, təşəkkül hadisəsini yaşayaraq, yaradıcılıq prosesi keçməklə, hər bir mərhələni ruhən yaşayaraq mənəvi cəhətdən ucalaraq, nurlanma zirvəsini fəth etdiyi şah əsərlər silsiləsindədir.

Muğam ifaçılığında öz dəst-xətti, ifa üslubu olan ustad sənətkar, Azərbaycan musiqi mədəniyyətinin inkişafında əhəmiyyətli töhfələr vermişdir. Belə ki, sənətkar Azərbaycan simli yaylı musiqi aləti olan kamançanın səslənməsinə yeni xallar və rənglər qatmış, eyni zamanda, onun konstruktiv quruluşunda dəyişikliklər edərək ifa imkanlarını genişləndirmişdir. Belə ki, ustadın kamança musiqi alətində etdiyi rekonstruksiya işi onun ifasının özəlliyinə də təsir etmişdir. Muğam ifaçılığında ustad sənətkar daxilindən gələn, onun idrak təfəkküründən süzülən səsləri əldə etmək üçün alətdə təkmilləşmə işi aparmaq məcburiyyətində qalır. Belə ki, xalq artisti H.Əliyev öz alətində daxilindən, ruhi aləmindən gələn səsləri əldə etmək üçün mövcud olan alətin qolunu qısaltmışdır. Standart uzunluğu 29 sm olan kamança yaylı musiqi alətinin qolunu iki sm qısaldaraq 27 sm etmişdir.

Özünəməxsus ifa prinsipi ilə seçilən Habil Əliyevin yaradıcılıq yolu tezliklə xalq şairi Bəxtiyar

Vahabzadə ilə kəsişir. Sonradan bu kəsişmə onların birgə fəaliyyəti möhkəm bağlara söykənərək əsil dostluğa çevrilir. "İlk məhəbbət", "Güləsən gərək" B.Vahabzadənin sözlərinə bəstələnmiş mahnılar silsiləsindəndir. Ustadın ifasından ilhamlanan xalq şairi Bəxtiyar Vahabzadə: "Habil əslində xalq musiqi yaradıcılığının ifaçısıdır. Lakin onun ifasında "Habil çaları" da var. Bizi valeh edən də budur. Çünki biz bu çalarları Habilə qədər heç bir kaman ifasında görməmişik. O, sadəcə çalmır, yaradır. Bəziləri kimi yaradıcılıqla axtarışlarını eninə-uzununa yox, dərin qatlara tuşlayan Habil düşündüyünə görə bizi də düşündürməyi bacarır. Düşündürməyən sənət sənət deyil. Buna görə də biz Habilə çalğıçı, yaxud ifaçı deyil, sənətkar deyirik" [8.].

Sənətkarın ifasının özünəməxsusluğunu ifadə edən şair "Habilin kamana gətirdiyi səs neylə kaman arasında özünəməxsus bir səsdir. Bəlkə də bu səs insan səsinə bir qədər yaxındır. Bu səsdə bəzən vahimə, bəzən inilti, bəzən də cəngavərlik duyuram. Biz Habilin ifasından sonra kamançanın nə qədər böyük imkanlara malik olduğunu görürük" [7.].

Muğamın düzgün səsləndirilməsi ifaçının şəxsi yaradıcılığından və onun ifaçılıq fantaziyasının zəngin olmasından bilavasitə asılıdır. Muğam fenomeni zəngin bilik mənbəyidir. Bu baxımdan onda mövcud olan biliyin dinləyiciyə ötürülməsi üçün ifaçıdan yüksək fitri istedad və xüsusi improvizə tələb olunur. İmprovizə öz yaradıcılıq fantaziyasını "ixtiraçılıq" əzmini nümayiş etdirmək üçün muğam ifa edən xanəndə və sazanda-ifaçı qarşısında geniş imkanlar açır.

H.Əliyev ifasına "vibrasiya", "glissando", "pizzicato", "forşlaq", "mordent", "trel" kimi müxtəlif melizmlərdən istifadə etməklə, eyni zamanda, bu xırda melizmlərə öz böyük ürəyini qatmaqla mükəmməl sənət əsəri yaratmışdır. Ustad çaldıqca hər ifasında yeni vəcd, hər vəcdə yeni nəfəs, hər nəfəsdə yeni aləm, yeni dünyanı kəşf edir.

Öz dünyasından gələn zəngin fikirləri isə bu alət vasitəsilə dinləyici kütləsinə barmaqları vasitəsilə ötürür. Kamança aləti bir növ burada əldə olunan zəngin informasiyanın ötürülməsi üçün rabitə rolunu icra edən cihaz funksiyasını daşıyır. Sənətkarın muğam ifasında, yaradıcılıq prosesinə qovuşmaqla həmin anda təxəyyülündən əldə olunan improvizasiyaların yeni variantları əmələ gəlir. Mahir kamança ifaçısı ənənəyə sadiq qalaraq muğam dəstgahlarımızı ənənə konteksti çərçivəsində ifasına, eyni zamanda, müasirliyi, yeniliyi özündə ehtiva edən "Cücələrim"in özünəməxsus ifası, özünün bəstələdiyi bir sıra mahnıları ilə ifaçılığını davam etdirirdi. "Ənənəni məhsuldar zəmin, onun özünəməxsus yasaqlarını isə yol göstəriciləri kimi qavrayan, duyan və öz peşəsini bu yönümdə təqdim edən sənətkar mütləq ənənəni zənginləşdirir" [10].

Sənətkarın ifası ruhi proses vasitəsilə insanı başqa aləmə qovuşdurur. Belə ki, zahiri baxışdan sadə görünsə də daxili zənginliyi ilə əks-səda yaradan sənətkar öz ifası ilə, həmçinin aləti ilə zamanın keçmişindən obrazlı şəkildə xəbər verir. Akademik Vasim Məmmədəliyev Habil ifaçılığını aşağıdakı təsnifata uyğun qruplaşdırmışdır:

1.Habil Əliyev kamançaya Azərbaycan ruhu, Azərbaycan nəfəsi, Azərbaycan rayihəsi gətirib, onu bizimkiləşdirdi. Başqa sözlə desək Habil Əliyev kamançanı "texnar" erməni ifaçılarının əlindən alıb yenidən millətimizə qaytardı.

2.Habil Əliyev kamançanın səs palitrasını, texniki imkanlarını genişləndirib, ona özünəməxsus yeni tembr, səslənmə və çalarlar gətirdi.

3.Habil Əliyev kamança alətini müşayiətçi alətdən qüdrətli solo alətinə çevirdi. Habil kamançadan istədiyi səsi, istədiyi effekti ala bilir. Onun kamançasının səsi tamam başqadır.

Bu da təsadüfi deyil ki, Habil sənətindən, onun alətinin ahəngdar tembrindən mənəvi qida alan görkəmli Azərbaycan Bəstəkarlar İttifaqının sədri, UNESCO – nun "Sülh naminə İncəsənət xadimi" Azərbaycan Respublikasının xalq artisti, Şöhrət ordenli, professor Firəngiz Əlizadə "Habilsayağı" pyesini bəstələmişdir. Əsər Şərq və Qərb mədəniyyət konteksti çərçivəsində yaranmışdır. Ustad: "Habilsayağı" - xüsusi musiqidir. Bu Azərbaycan bəstəkarı tərəfindən yaradılmış müasir klassik musiqidir. Onda mənim üslubum çox ilhamla təcəssüm olunmuşdur, eyni zamanda, mənim ruhum saxlanılmışdır. Firəngiz xanım mənim üslubumu təhrif etməmiş, mənim musiqi dilimin özünəməxsusluğunu pozmamışdır. O, muğamın dilini düzgün ifadə etmiş, əhəmiyyətli dərəcədə zənginləşdirmiş, öz fantaziyası ilə dolğunlaşdırmışdır..." [9].

Sənətkarın ifasında muğam ifaçılığına xas olan nadir improvizasiya bacarığı, misilsiz ifaçılıq texnikası, Şərq mədəniyyət paradiqmasına məxsus incə musiqi duyumu, gözəl zövq və dəqiq ölçü

hissi vardır. Bu da danılmaz həqiqətdir ki, Şərq mədəniyyəti daim zəka və biliyin mənbəyi hesab olunaraq, özü-özünü dərk etməyə, daxili etiqad zənginliyinə malik olub, intuitivizmə və irrasionalizmə istiqamətləndirən bir bilik sahəsi olmuşdur [3].

Məhz Habil ifasında biz bu intuitivliyi, Şərq mədəniyyətinə məxsus olan zəka və biliyi duyuruq. O, batindən gələn yüksək məna çalarlarını öz kamança alətində məharətlə ifa edərək, zahirən canlandırır. Ustaddan pedaqoji fəaliyyəti barəsində sual olunduqda "Yetişdirməm olmayıb... Əgər olsaydı, onlara zülm edərdim. Çünki bir musiqini bu gün bir cür, sabah isə başqa cür çalırdım. Bir gündə 10-12 saat məşğul olurdumsa, yenə də azdır, - deyirdim. Mənim tələbələrim olmayıb, amma mənim lent yazılarıma baxıb mənim kimi çalırlar. Kimsə deyib ki, əsl müəllim odur ki, o dərs demədən tələbələri olsun. Mənimki bu deyimə bənzəyir..." [5].

**Azərbaycanın ilk qadın kamança ifaçısı**

Kamanı ilə dinləyicilərin məhəbbətini qazanan, qeyri-adi ifa tərzi ilə fərqlənən xalq artisti Şəfiqə Eyvazova 50 ildir ki, professional sənətdədir. Seçilən bir tale yaşayan Şəfiqə Eyvazova kamana könül bağladığı gündən onun simlərində elə bir möcüzə yaratdı ki, hətta üzünü görmədən də belə musiqinin ahəngindən ifaçının kim olduğunu demək mümkündür. Əgər ustad Habil Əliyev kamançanın tarixində yeni bir eranın başlanğıcını qoydusa, Şəfiqə Eyvazova da bu alətdə qadınlar arasında ilk ifaçıdır ki, özünəməxsusluğu və zərifliyi ilə fərqləndi. Kamanla ünsiyyət bağladığı gündən unudulmaz bəstəkarımız C.Cahangirovun musiqilərini dərindən sevən, onun əsərlərini ürəklə, valehedici bir ahənglə ifa etməyi özünə borc bilən Şəfiqə Eyvazova həqiqətən, bu qədim musiqi alətinin vurğunudur. Özünü kamançasız təsəvvür etmir. Əslində, onların ailəsi elə kamança çalanlardan ibarətdir.

1947-ci ilin bir yaz günü Bakıda anadan olan Şəfiqə xanım erkən yaşlarında musiqiyə həvəs göstərmişdir. Atası Alxas kişi ağır təbiəti və sözünün ötkəmliyi ilə doğulub boya-başa çatdığı Xızı rayonunda sayılıb-seçilən kişilərdən olub. Muğam sənətinə rəğbəti və özünün az da olsa səsi olduğundan övladlarının da savadlı musiqiçi kimi görməyi arzu edirdi.

Bu məqsədlə də 1957-ci ildə Şəfiqə Eyvazovanı 2 nömrəli Uşaq Musiqi məktəbinin kamança sinfinə yazdırır. Yaşça özündən 10-15 yaş böyük olan qardaşı Niyaz Şəfiqənin kamança çalmasına qəti etiraz etsə də, digər qohumlar onu razı sala bildilər.

Altı ay dərsə gec getməsinə baxmayaraq, fitri istedadı və zəhmətsevərliyi sayəsində az bir vaxtda sevimli müəllimi, sonralar isə ailəvi dostu, qızı Mehrinin də müəllimi olmuş Almaz Kərimovanın sayəsində Şəfiqə xanım keçilən proqramı mənimsəyə bildi.

1962-ci ildə sənədlərini Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbinə verir. Qəbul imtahanında "Rahab" muğamını çalır, gənc qızın belə çətin muğama müraciət etməsi münsiflərdən Əhməd Bakıxanov, Midhəd Əhmədov, Adil Babayev tərəfindən çox bəyənilir. Adətən, çətin ifa olunan muğam nümunələri II-III kurslarda keçilir. 14 yaşlı bir qızcığazın belə muğama müraciət etməsi Əhməd Bakıxanovun nəzərindən yayınmır. Böyük sənətkar "Bu qızın böyük gələcəyi var" –deyə, Şəfiqə xanımı təbrik edir. Adətən, hamını adı ilə çağıran Əhməd Bakıxanov, nədənsə o gün Şəfiqə sözünə xanım kəlməsini də əlavə edir. "Bu gündən sənətinin də xanımı olmağa çalışmalısan".

Bu gün adı təkcə respublikamızda deyil, onun hüdudlarından çox-çox uzaqlarda da tanınan və sevilən sənətçi həyatının 50 ildən çoxunu milli musiqi mədəniyyətimizin, kamança sənətinin inkişafına və tədrisinə həsr etmişdir. Təkcə özünün ifaçılıq məharəti ilə deyil, eyni zamanda, pedaqoji fəaliyyəti, ağır təbiəti və ziyalılığı ilə də geniş tamaşaçı auditoriyasının dərin rəğbətini qazanmış Şəfiqə xanım Azərbaycanda ilk qadın solist kaman ifaçısıdır.

Repertuarında xalq mahnıları, Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərinə geniş yer ayıran Şəfiqə xanım dünyanın 30-dan çox ölkəsində ABŞ, Türkiyə, Əlcəzair, Almaniya, Polşa, Yaponiya və digərlərində qastrol səfərlərində olmuş, Azərbaycan incəsənətini layiqincə təmsil edərək Vətənə şöhrət və başucalığı gətirmişdir.

Təsadüfi deyil ki, respublikanın bir çox bəstəkarları – Tofiq Quliyev, Fikrət Əmirov, Süleyman Ələsgərov, Xəyyam Mirzəzadə, Musa Mirzəyev, Aqşin Əlizadə və onlarca digər sənətkarımız Şəfiqə Eyvazovanın ifasına yüksək qiymət verərək, kamança ilə simfonik orkestr üçün yazılmış konsertin məhz Şəfiqə xanımın ifasında səslənməsini arzu etmişlər. Bu gün radio və televiziyanın qızıl fondunda Şəfiqə xanımın müxtəlif illərdə lentə alınmış ifalarının sayı çox olmasa da, onların hər biri xalqın

yaddaşında əbədi iz qoymuşdur. Tofiq Quliyevin “Axşam düşdü”, Cahangir Cahangirovun “Zəriflik”, Süleyman Ələsgərovun “Xəyala dalarkən”, Hacı Xanməmmədovun kamança ilə orkestr üçün konsert, Əhsən Dadaşovun “Şur rəngi”, Tofiq Bakıxanovun konsert, dünya klassiklərindən Montinin “Çardaş”, P.Çaykovskinin “Payız nəğməsi” və bir sıra digər əsərləri ilə yanaşı, “Rast”, “Şur”, “Şüştər”, “Rahab” kimi möhtəşəm muğam ifaları da onun repertuarında yer tutur.

Şəfiqə Eyvazova o qüdrətli sənətkarlardandır ki, orta əsrlərdən üzü bəri təriflənən, klassik ədəbiyyatda adı tez-tez çəkilən kamançanın tarixində bir qadın ifaçı kimi öz möhürünü vurdu. Onun avazına yeni xallar, rənglər, ovqatlar, duyğular qatdı. Şəfiqə Eyvazovanın kamandakı möcüzəsinə qulaq asanda adama elə gəlir ki, eşitdiyin o sədalar öz ürəyinin pıçıltılarıdır. Özünəməxsus ifa tərzi ilə seçilən və pərəstişkarlarını sehrləyən xalq artisti Şəfiqə Eyvazova yalnız dinləyiciləri, tamaşaçıları deyil, öz həmkarlarını da valeh edən ustaddır.

**Müasir dövr kamança ifaçıları (F.Dadaşov, E.Əhmədov)**

Azərbaycan Respublikasının xalq artisti, professor Fəxrəddin Dadaşov milli musiqi mədəniyyətində özünəməxsus yeri olan görkəmli ifaçı, pedaqoq, klassik muğam sənətinin mahir bilicilərindən biridir. Yüksək ifaçılıq istedadı, böyük sənətkarlığı ilə Fəxrəddin Dadaşov xalqımız arasında, eləcə də onun hüdudlarından çox-çox uzaqlarda şöhrət qazanmış, Azərbaycan musiqisini, Azərbaycan muğamını dünyaya tanıtmışdır. Məşhur kamança ustası bütün dünyada öz ifaçılıq qabiliyyəti ilə milyonlarla dinləyicinin ürəyini fəth etmiş, Azərbaycan muğamını ən müxtəlif millətlərdən olan insanlara sevdirmişdir.

Fəxrəddin Dadaşovun yaradıcılığından söhbət açarkən, ilk növbədə onun incə musiqi duyumunu, texniki məharətini, geniş repertuarını, ifaçılıq üslubunun xüsusiyyətlərini xarakterizə etmək lazımdır. Bu baxımdan Fəxrəddin Dadaşovun yaradıcılığında Azərbaycan xalq və bəstəkar mahnılarının, muğamların ifası qeyd olunmalıdır. Zəngin repertuar seçimi, əsərlərin janrından və həcmindən asılı olmayaraq bədii təfsir xüsusiyyətlərinə eyni ciddiliklə yanaşma Fəxrəddin Dadaşovun yaradıcılığını xarakterizə edən əsas cəhətdir.

Kamança alətinin zərifliyini, onun melodikliyini, ahəngdarlığını səsləndirən mahir ifaçı Fəxrəddin Dadaşov həm muğam sənətinə, həm də Avropa musiqisinə öz alətinin rəngarəng boyalarını aşılayan tembrində gözəl səsləndirən ifaçılarımızdan biridir. Ruhi aləminin dərinliklərində gizlənən mənaların sirrini öz musiqi aləti ilə dinləyiciyə açan sənətkar kamanla bağlı olaraq, bir-birindən ayrılmayan vəhdətə çevrilmişdir.

Azərbaycan Respublikasının Xalq artisti Fəxrəddin Əlisahib oğlu Dadaşov 26 sentyabr 1950-ci ildə Bakıda - qədim İçərişəhərdə musiqiçi ailəsində dünyaya göz açmışdır. Fəxrəddin Dadaşov həyata, musiqiyə sevgisini, zəhmətkeşliyi, bədii zövqünü, yüksək mənəviyyatı, peşəkarlığı ailəsindən, valideynlərindən mənimsəmişdir. Daha kiçik yaşlardan musiqiyə həvəsi olduğuna görə atasının nağarasında ifa etməyi öyrənməyə başlamışdır. Ailədəki yaradıcı mühit onun bu sənətin ecazkar aləminə məhəbbətini daha da artırırdı. Musiqi həvəsi daha kiçik yaşlardan görünən Fəxrəddin Dadaşov Cənubi Azərbaycanın ‘’Rəşt’’ radio kanalında səslənən viola ifalarına qulaq asaraq uşaq vaxtı yuxuya gedərdi. Cənubi Azərbaycan musiqisinə olan sevgisinin əsas səbəblərindən biri sənətkarın köklərinin Ərdəbilə aid olmasından irəli gəlir.

Onun musiqiçi kimi formalaşmasının ilkin mərhələsi əlbəttə ki, musiqi məktəbi ilə bağlıdır. Musiqiyə olan həvəsi hələ balaca yaşlarından hiss olunduğuna görə 8 yaşında musiqi təhsili almaq üçün atası ilə birgə Bakı şəhərinin 2 nömrəli musiqi məktəbinə müraciət edir. Tarda təhsil almaq istəyən Fəxrəddin fiziki baxımdan balaca olduğuna görə onu kamança sinfinə qəbul edirlər. Gənc Fəxrəddinin qeyri-adi istedadı, musiqiyə vurğunluğu və zəhmətsevərliyi elə ilk günlərdən müəllimlərinin diqqətini özünə cəlb etmişdir. Kamançada əsərlərini parlaq, emosional tərzdə duymaq qabiliyyəti, musiqini qəlbindən, ruhundan keçirərək sevgi ilə çatdırmaq istəyinin güclü olmağı ifaçını daim öz üzərində çalışmağa sövq edirdi. Musiqi məktəbində təhsil aldığı zaman Azərbaycan üzrə məktəblərarası musiqi yarışmasında iştirak etmişdir. Müslüm Maqomayevin ‘’Radio marşı’’ və Şüştər muğamını ifa edən Fəxrəddin birinci yerə çıxaraq qalib olmuşdur.

Onun yaradıcılığı yalnız Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da sevilirdi. Gənclik illərindən başlayaraq Fəxrəddin Dadaşovun bu xüsusiyyətləri gələcək illərdə də inkişaf etmiş və onu

sonralar Azərbaycan kamança ifaçılığında görkəmli yer tutmasını təmin etmişdir. Kamança ifaçısının bu uğurlarında onun zəhmətkeşliyi, məqsədyönlülüyü ilə bərabər qeyd etdiyimiz fərdiemosional keyfiyyətlərinin əhəmiyyəti böyükdür. İfaçının musiqi zövqünə, dünya görüşünə, həyata baxışına təsir göstərən ətraf mühitlə yanaşı, kamança təhsili alması parlaq musiqi istedadı ilə bərabər, dünyagörüşünün genişliyi, qarşıya qoyulmuş hədəfə doğru xüsusi ruh yüksəkliyi ilə can atmasına səbəb olmuşdur.

1977-ci ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Burada təhsil aldığı vaxt Azərbaycan Xalq artisti Ramiz Mirişli dəyərli kaman ustadının müəllimi olmuşdur. Əsərlərin öyrənilməsində kamança alətinin dərindən hiss edilməsi, musiqi strukturunun daha aydın qavranılması, muğamda sərbəstlik duyğusunun yaranması onun və müəlliminin daim diqqət mərkəzində dururdu.

Gənc Fəxrəddin yaxşı başa düşürdü ki, bütün bu ifaçılıq üsulları onun daha məzmunlu, mənalı, dolğun ifa qabiliyyətinin formalaşmasında mühüm əhəmiyyət kəsb edirdi. Buna görə də müəllimi səs üzərində aparılan işə xüsusi diqqət edirdi. Muğamın düzgün və aydın ifa olunması üçün səs çalarlarının əhəmiyyəti böyükdür. Fəxrəddin Dadaşov hər bir muğamın məzmunu və xarakterinə uyğun olaraq, hər şöbənin öz səs rəngini duyan və ifadə edən kamança ustadlarımızdandır. Həmçinin qeyd etmək lazımdır ki, gənc Fəxrəddinin müəllimi ilə ünsiyyəti zamanı özünəməxsus pedaqoji ustalığının müəyyən ünsürləri də həmçinin formalaşmağa başlamışdır.

Fəxrəddin Dadaşovun hər kamança ifaçısına xas olmayan daha bir vacib keyfiyyəti onun mahir konsertmeysterlik qabiliyyətidir. Dünyanın bir çox ölkələrində və vətənimizdə olan çoxsaylı konsertlərdə dinləyicilər bu qabiliyyətin şahidi olmuş, onun həm solo, həm də istedadlı ansambl ifaçısı kimi peşəkarlığına heyran qalmışdır. Fəxrəddin Dadaşov bir ansambl ifaçısı kimi parlaq keyfiyyətlərə malik kamança ifaçısıdır.

Fəxrəddin Dadaşovun və əlbəttə ki, onun kimi şəxsiyyətlərin formalaşmasında bir çox amillər – musiqi mühiti, təhsil aldığı məktəblər, dövrün ictimaisiyasi münasibətləri, onu əhatə edən çevrə və digərləri öz rolunu oynamışdır. Mahir ifaçı öz üzərində daima işləmiş, bilik və vərdişlərini təkmilləşdirmişdir. Fəxrəddin Dadaşovun həyatının xoşbəxtliyi bundadır ki, onun yaradıcılığının inkişaf illəri Azərbaycan musiqi sənətində parlaq çiçəklənmə dövrünə təsadüf edir. Bu dövrdə formalaşan ifaçı zamanın tanınmış şəxsiyyətlərindən olan Ramiz Mirişlinin sinfində təhsil almış, Əhməd Bakıxanov adına ansamblda və Cabbar Qaryağdıoğlu adına muğam üçlüyündə çalışmışdır.

Fəxrəddin Dadaşov ifasında hər bir nüansa, detala, intonasiyaya, səslənmə keyfiyyətinə, əsərin öyrənilmə prosesinə böyük diqqətlə yanaşırdı. İfaçı zəngin yaradıcılıq mühitinin verdiyi üstünlüklərdən bəhrələnərək özünəməxsus sənət yolu keçmiş və bunu yüksək yaradıcılıq üslubuna çevirməyə nail olmuşdur. Məhz bunun nəticəsidir ki, beynəlxalq festivallarda onun sənətkarlıq keyfiyyətləri dinləyicilər tərəfindən həmişə təqdir edilmişdir.

Bir müəllim kimi Fəxrəddin Dadaşov tələbələrinə həmişə qayğıkeşliklə və tələbkarlıqla yanaşır, keçilən hər bir əsər haqqında geniş məlumat verir, muğamlarımızın ifa incəliklərini izah edir. Kamança ustası dəyərli bir pedaqoq olaraq çox sayda tələbə yetişdirmişdir. İfaçılıq fəaliyyəti kimi pedaqoji fəaliyyətdə də böyük uğurlara nail olmuşdur. Tahirə Kərimova, Ramiz Mirişli, Həbib Bayramov, Süleyman Ələsgərov, Əhməd Bakıxanov və digər görkəmli şəxsiyyətlərdən dərs alan ifaçı onlardan öyrəndiyi pedaqoji keyfiyyətləri öz tədris prosesində böyük uğurla tətbiq etmişdir. Azərbaycan musiqi mədəniyyətinin layiqli davamçıları sırasında məhz onun yetirmələrinin olması əlbəttə ki, təsadüf deyil.

İfa etdiyi muğamların xarakterinə görə F.Dadaşov obrazları açmaq qabiliyyətinə malik bir ifaçıdır. Xalq mahnılarını ifa edərkən səs, ritm, ifadələrin xarakterini dolğunluğu ilə çatdırır. Mahir ifaçı uzun illər ərzində solo və müşayiət ifaçılığının üsullarını dərindən mənimsəmiş və daha da artırmışdır. Fəxrəddin Dadaşov solo, ansambl ifaçılığı və peşəkar pedaqoq kimi xüsusiyyətlərin hər birini özündə cəmləşdirən nadir ifaçılarımızdan biridir.

**Elnur Əhmədov**

Azərbaycan müasir kamança ifaçılığı da daim inkişafdadır. Elnur Əhmədov, Mehri Əsədullayeva, Toğrul Əsədullayev və digər gənc kamança ifaçıları ənənəvi və klassik çalğıüslubunu özlərinəxas ifa

texnikaları, rəngarəng improvizələrlə zənginləşdirib daha çox yaradıcı aspektdən irəliləyirlər. Müasir dövrümüzdə bu tərz ifaların maraqla qarşılanmasına səbəb kamança ifaçılığının daha zəngin improvizə xarakter daşımasıdır.

Azərbaycanda bir çox kaman ifaçıları vardır. Onların hər biri öz ifaçılıq bacarıqları, mükəmməl ifaları ilə həm Azərbaycanda, həm də dünyada şöhrət qazanmışlar. Onlardan biri də mükəmməl kamança ifaçısı, pedaqoq, əməkdar artist Elnur Əhmədovdur.

Azərbaycanın ən qədim alətlərindən biri olan kamança muğamlarımızın ifası zamanı üçlüyə daxil olan (tar, kamança, xanəndə) xalq çalğı alətlərinin ən parlaq və melodik səsə malik bir alətdir. E.Əhmədovun barmaqlarının dəydiyi bu alətin sədaları özünəməxsusdur. Onun ifasında kamança dolğun və ahəngdar səslənməsi ilə seçilir. Öz dinamikası, səs tembrinə görə mükəmməl alət hesab edilən kamançada müxtəlif dinamik çalarları əks etdirən uslubları ilə diqqəti cəlb edir.

E.Əhmədovun istedadının üzə çıxmasında babası Aşırxan Noçuyeviv böyük rolu olmuşdu. Babası həvəskar musiqiçi olub və onun dediyinə görə babası öz dövrünün məşhur ifaçılarından olan C.Qaryağdıoğlu, S.Şuşinski, X.Şuşinski, R.Muradova və digər korifey sənətkarların lent yazılarına qulaq asarmış. Belə bir şəraitdə böyüyən Elnurun musiqiyə həvəsi buradan yaranıb. E.Əhmədov özü belə qeyd edirdi: “Mənim 5 yaşım olanda, hələ yazı-pozu bilmədiyim vaxtlarda anam deyərdi ki, qrammafon vallarına o qədər qulaq asmışdın ki, uzaqdan onların səsini eşidəndə hansı xanəndəyə aid olduğunu ayıra bilirdin”.

E.Əhmədovun kamançaya həvəsi, alətə bağlılığı kiçik yaşlarından özünü büruzə verirdi. Ailəsi də onun bu həvəsini görür və onu musiqi məktəbinə təhsil almağa göndərirlər. İlk ibtidai musiqi təhsilini Xalq artisti Elşən Mansurovun sinfində almışdır. Müəlliminin rəhbərliyi altında müxtəlif müsabiqələrdə, bayramlarda, konsertlərdə çıxışlar edirdi. 1991-ci ildə Azərbaycan Mədəniyyət Nazirliyi tərəfinfən təşkil olunmuş orta ixtisas musiqi məktəbləri arasında keçirilən müsabiqədə göstərdiyi yüksək səviyyəli ifalarına görə I dərəcəli diplomla təltif olunmuşdur.

Alətin professional tədrisinin dalinca gedən Elnur indiki Bakı Musiqi Kollecinə daxil olur. Burada muğam fənni üzrə professor, pedaqoq Arif Əsədullayevdən dərs alır. Təhsil dövründə ən samballı müəllimlərdən dərs alaraq onların ifaçılıq metodikalarından qidalanaraq inkişaf etmişdir. Daha sonra o, Bakı Musiqi Akademiyasına daxil olur və Azərbaycanda kamança ixtisası üzrə ilk magistr elmi dərəcəsi layiq görülən tələbə olur.

BMA-da o, not sinfində Afət Kazımovadan, muğamdan isə görkəmli mərhum kamança ifaçısı Əməkdar artist Ədalət Vəzirovdan dərs almışdır. Tədris müddətində o, öz pedaqoqları tərəfindən elə ustalıqla tərbiyələndirilirdi ki, gənc ikən geniş repertuara malik idi.

E.Əhmədovun ifaçılıq və yaradıcılıq fəaliyyəti genişdir. O həm solo, həm simfonik, ansamblda ifaçılıq, həm də pedaqoji fəaliyyətlə məşğuldur. 1996-cı ildən Bakı Musiqi Kollecinə konsertmeyster-müşayiətçi kimi dəvət edilir. Sonradan burada ixtisas müəllimi kimi də fəaliyyət göstərməyə başlayır. 2001-ci ildən etbarən Azərbaycan Milli Konservatoriyasında dosent vəzifəsində çalışır.

E.Əhmədov pedaqoji fəaliyyəti ifaçılıq sənətinin ən vacib cəhəti hesab edir. Öz sələflərindən qazandığını və yüksək səhnə mədəniyyətini yaratmaq bacarığını öz yetirmələrinə ötürməyi özünə börc bilir. Onun yetirmələri arasında Elnur Mikayılov, Araz Ağaverdiyev, Fərid Nəcəfli, Şəlalə Quliyeva və digərlərinin adlarını qeyd edə bilərik.

Öz tələbələrinə fərdi şəkildə yanaşan E.Əhmədov onlara ifaçılıq sahəsində lazımi tövsiyyələti verməklə yanaşı, onların nəzəri biliklərini də dərinləşdirir, dünyagörüşlərini artırır. Dərs prosesində hər bir muğamı ayrıca təhlil etməklə,ifa zamanı istifadə olunan xüsusi ifaçılıq üsullarını da açıqlayır. Gənc ifaçıların səhnə davranışına xüsusi diqqət yetirir. Onun fikrincə bütün bunlar hər bir sənətkarın daxili zənginliyinin göstəricisidir.

Gən ifaçı kimi o, öz müəlliminin rəhbətrliyi altında formalaşır, daha da təkmilləşir. Yüksək əxlaqi dəyərlərə malik peşəkar bir müəllim kimi öz bilik və bacarıqlarını gənc kaman ifaçılarının hazırlanması işinə yönəldir və bu zaman vaxtın necə keçdiyini belə unudur.

Çoxşaxəli yaradıcılığa malik olan E.Əhmədov fəaliyyət göstərdiyi büün sahələrdə nəzliyyətlər əldə etmişdir. Onun müsabiqələrdə ifaçı kimi iştiraklarından əlavə “Habil Əliyev” adına kamança müsabiqəsində münsiflər heyətinin üzvü kimi iştirakı da təqdirəlayiqdir. Bundan əlavə 2001-ci ildən Azərbaycan Dövlət Opera və Balet teatrının simfonik orkestrində fəaliyyətə başlamışdır.

E.Əhmədov eyni zamanda bir müşayiətçi kimi görkəmli sənətkarlarımızdan olan Qəndab Quliyeva, Səkinə İsmayılova, Aygün Bayramov, Nəzakət Teymurova, Gülyaz Məmmədova, Mənsum İbrahimov, Canəli Əkbərov və digər məşhur xanəndələr ilə birlikdə çalışmışdır.

Bundan əlavə onu da qeyd edək ki, E.Əhmədov Xalq artisti, professor Mənsun İbrahimovun rəhbərliyi ilə yaradılmış "Qarabağ" muğam qrupunda çalışır. Həmçinin o, dünyanın 30dan çox ölkəsində həm solo, həm muğam üçlüyü, həm də ansambl tərkibində möhtəşəm konsertlər vermiş və uğurlar əldə etmişdir.

E.Əhmədovun kamançada ifa etdiyi istər muğam dəstgahları, istərsə də bəstəkar əsərlərinin bədii üslubunun təsvirində, əsərin ideya məğzinin açılması və çatdırılmasında dərin fikir, ustalıq duyulur. Onun ifaçılıq zövqü, musiqini duymaq qabiliyyətindən irəli gəlir. Hətta onun yaradıcılıq fərqliliyi özünü konsertlərində büruzə verir. İştirak etdiyi bütün konsertlərdə onun ifası səhnədən tutmuş dinləyiçiyə qədər hər kəsi düşündürür, həyəcanlandırır və valeh edir. Onun lirikası öz təbiəti baxımından əsl milliliyi çox parlaq bir şəkildə göstərə bilir. Xüsusən, onun ifa etdiyi "Segah", "Şur" muğam poppurilərinin solo ifası, "Naz-nazı", "Mirzeyi", "Əhsəni", "Qəşəngi" və digər xalq rəqs melodiyalarının, H.Xanməmmədovun kamança üçün konsertinin II və III hissələrinin özünəməxsus ifa tərzi öz səmimiliyi ilə seçilir.

Elnur Əhmədov Azərbaycan musiqisinin inkişafında və təbliğində göstərdiyi xidmətlərə dövlət başçısı tərəfindən yüksək qiymətləndirilmişdir. İstər Azərbaycanda, istərsə də dünyanın bir çox ölkələrində yaxşı tanınan E.Əhmədov çalışdığı bütün sahələrdə hər zaman məsuliyyətli olması ilə seçilir. Həyatını musiqisiz təsəvvür edə bilməyən E.Əhmədov əsl sənətkar kimi öz vəzifəsini milli musiqinin təbliğinə hərs etməkdə görür.

Nəticə

Azərbaycan xalqının musiqi zövqünün formalaşmasında xalq çalğı alətlərinin müstəsna rolu vardır. Belə alətlərdən biri də qədim çalğı alətimiz olan kamançadır. Kamança ifaçılarının milli musiqi sənətində özünəməxsus yeri vardır. Həm şifahi ənənəli professional musiqi ifaçılığında, həm də bəstəkar yaradıcılığında kamança alətindən geniş istifadə olunur

Klassik şairlərin əsərləri, qədim və orta əsr musiqişunaslarının araşdırmaları, rəssamların çəkdikləri miniatürlər milli sərvətimiz olan musiqi alətlərimiz haqqında bizə dəyərli məlumatlar verir. XVI əsr Təbriz rəssamlıq məktəbinin yetirməsi Mir Seyid Əlinin "Musiqi məclisi" rəsm əsərində bərbət, dəf və kamança alətləri təsvir edilib. XIV yüzilliyin məhşur musiqişünası Əbdülqədir Marağayi əsərlərində başqa musiqi alətlərilə yanaşı kamançadan da bəhs edib, onun haqqında geniş məlumat verib. XVII əsrdə Azərbaycana səyahət etmiş alman səyyahı E.Kempfer türk dünyasına məxsus bu alətin üç simli, bəzən dörd simli olduğunu, ezaskar səs gözəlliyi olduğunu yazır. XVI əsrdə yaşamış, özbək xalqının və türk dünyasının fəxri Əlişir Nəvai, dahi Azərbaycan şairi Məhəmməd Füzuli də əsərlərində başqa musiqi alətlərilə yanaşı kamançanın da adını çəkmişlər. Nizami Gəncəvi "Xosrov və Şirin" əsərində milli musiqi alətlərimizin "nazli gəlin"i olan, incə, məlahətli səsə malik kamançadan bəhs edir.

Həmçinin ifaçılıq sənəti tarixən inkişaf etmiş, texniki, bədii baxımdan təkmilləşərək müasirləşmişdir. XIX əsrin ikinci yarısından başlayaraq Bakı, Şamaxı və Qarabağda keçirilən musiqi məclisləri xanəndəliklə yanaşı, sazəndəlik sənətini də yeni inkişaf mərhələsinə qaldırmış və bir çox məşhur ifaçıların yetişməsinə səbəb olmuşdur.

XX əsrin ikinci yarısında xüsusilə tar və kamança ifaçılığı daha yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. Azərbaycan kamança ifaçılığı tarixinə nəzər saldıqda milli alətlərimizin görkəmli ustad ifaçılarının özünəməxsus ifa üslub keyfiyyətlərinə malik olduğunu görə bilərik. Bu ifaçılardan Habil Əliyev, Şəfiqə Eyvazova, Munis Şərifov, Fəxrəddin Dadaşov və bir çox peşəkar ifaçılar bu alətlərin çalğı texnikasını, ifaçılıq imkanlarını daha yüksək səviyyəyə qaldırmışlar və onların ifalarında sənətə estetik yanaşma üstünlük təşkil edir.

XX əsrin ortalarında Habil Əliyev Azərbaycanda muğamın əsl ruhunu geri qaytara bildi. Onun istifadə etdiyi ahəngli və lirik çalğı texnikası İran ifaçılarını da Azərbaycan kamança ifaçılığına doğru yönəldə bildi.Habil Əliyev sələfləri olan ustad sənətkarların ifa üslubuna hörmətlə yanaşaraq, ənənəyə sadiq qalmaqla bərabər, öz fərdi yaradıcılıq yolunu cızan, özünəməxsus ifa üslubuna malik musiqiçi idi. Bu özünəməxsusluq həm ustadın ifa etdiyi kamança musiqi alətində, həm də onun canlandırdığı

(səsləndirdiyi) musiqidə öz əksini tapmışdır.

Bundan əlavə Şəfiqə Eyvazova ilk qadın solist kamança ifaçısı kimi tarixə daxil olur. Onun muğam ifalarını dinlədikcə coşqun və emosional uslubu aydın şəkildə özünü büruzə verir. Həmçinin o, klassik muğam ifaçılığı ənənələrini qoruyub saxlayan sənətkarlardandır.

Fəxrəddin müəllim muğam ifaçılığında harmonik vasitələri tətbiq edən ilk kamança çalandır. O, bu harmoniyaları müxtəlif texniki üsullarla-akkord, arpecio və digər fakturalarla icra edir. Eyni zamanda muğamın məqam əsası ilə ahəngin vəhdətinə nail olur. Bu yenilik ehtimal ki, Fəxrəddin Dadaşovun fortepiano alətini dolğun akkordlarla ifa etmək bacarığından qaynaqlanmışdır. Yüksək çalğı texnikası, emosional ifadəlilik və muğam improvizələrinə xas olan fərdi təfsir və ifa vasitələrinin zənginliyi onun sənətini xarakterizə edən cəhətlərdir. Fəxrəddin Dadaşov ifaçılığının başqa bir səciyyəvi cəhəti odur ki, muğamın zənginliklərinə yeni ifa keyfiyyətləri bəxş etməklə özünəməxsus dəsti-xətt yaratmışdır.

Məlum olduğu kimi, kamança simli yaylı musiqi alətində pərdələr yoxdur. Bu baxımdan rekonstruksiya əsasında barmaqlar arasındakı məsafələr kiçilmiş, eyni zamanda, yeni mükəmməl səs effekti yaranmışdır. Ehtimal edirik ki, ustadın mövcud rekonstruksiya işi muğam ifaçılığında itirilmiş səslərin bərpasına zəmin yaradır. Mövcud olan rekonstruksiya işini Azərbaycan Respublikasının xalq artisti Elşən Mansurov və Azərbaycan respublikasının əməkdar artisti Elnur Əhmədov kimi muğam ifaçılarımız öz alətlərində etmişlər.

İfaçılıq sənətində öz tərzini yaratmaq (təkrarda təkrarsızlıq) olduqca çətin işdir. Təkrarda təkrarsızlıq isə yaradıcılığın təbii fəlsəfəsidir. Hər gələn nəsil sənətdə öz cığırını açmasa, sənət heç zaman inkişaf edə bilməz.

Azərbaycanda kamança ifaçılığının inkişafına əsas verən şərt xalqın öz hiss və fikirlərini instrumental ifadə etmə tələblərindən irəli gəlirdi. Azərbaycanda kamança ifaçılğının geniş yayılmasına və ifaçılıq imkanlarının inkişafına təsir edən səbəblər kimi aşağıdakıları qeyd edə bilərik:

-alətin müşayiət edə bilmə bacarığı,

-ifaçı tərəfindən alətin asanlıqla qavranılması,

-alətin tədrisində professionallığın olması

-alətin təkrarolunmaz incə səslənməyə malik olması

## ƏDƏBİYYAT

1.Abdullayeva S. Azərbaycan Xalq Çalğı Alətləri. Bakı, Adiloğlu, 2002, 454 s.

2.AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun elmi arxivi, qovluq № 80. Məşədi Süleyman Mansurovun xatirələri.)

3.Bayramlı Y. Azərbaycan simli musiqi alətləri milli mədəni ənənənin tərkib hissəsi kimi. Fəlsəfə doktoru dissertasiya işi. Bakı, 2014.

4.Dağlı R. Xızı-Siyəzən bölgəsinin tarixi (arxeoloji-etnoqrafik tədqiqat). Bakü, 2011. Afpoliqraf.

5.Daşdəmirli Ə. Mən kamançaya borclu qalmamışam. // Azərbaycan müəllimi. 2011. 11 noyabr. s.12-13

6.Hüseynov R. Min bir gecə.Bakı,1988

7.Ələkbərov A. Kaman əfsanəsi. H.Əliyev haqqında. Bakı, Aspoliqraf, 2012, 160 s.

8.Xəlilzadə F. Möcüzəli təranələr dünyası. // "Azərbaycan", 2012 14 iyun, s.6

9.Manafova C. Firəngiz Əlizadənin "Habilsayağı" əsərində muğamdan istifadə prinsipləri. // "Mədəni həyat" 2013-12 s. 63-65

10.Rəhimli İ.Ə. Habil Kaman (Sənətdə keçən ömür). B.: İşıq, 1987, 112 s.

11.Şuşinski F. Azərbaycan xalq musiqişiləri. Bakı: Yazıçı, 1985, ????? s.

**Rus dilində**

12.Рахмани А.А. "Тарих-и алам араи-и Аббаси" как источник по истории Азербайджана. Б. 1960, Изд-во АН Азерб.

**** Naxçıvan Dövlət Universiteti***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***
***E-mail:zaminajafova@gmail.com***

**Zamina Najafova**

**IN THE DEVELOPMENT OF PERFORMANCE POSSIBILITIES OF THE BOW INSTRUMENT THE ROLE OF MASTER PERFORMERS**

One of the interesting areas of Azerbaijani musical culture is the art of performance. The historical significance of the art of performance, based on the ancient and rich traditions of folk music, is very great. From the paintings, miniatures and other ancient sources engraved on historical monuments, it is clear that performing arts have always been a favorite and respected art field. As is known, performing art is one of the main types of artistic creative activity. Unlike other types of art (painting, sculpture, etc.), musical art needs to be created a second time. That is, for the real existence of music, the activity of a second creative force between the author and the listener is necessary, which consists of the performer. If there is no performer, i.e. the person who plays the composed piece of music (singer, musician), music remains a lifeless thing. Music, which has a history as old as mankind, is one of the most mysterious values discovered by mankind. Each nation has discovered a musical instrument suitable for its soul to play beautiful music. Thus, a large number of mysterious and magical musical instruments were created, one of which is the kamancha, whose sound vibrates the strings of the human heart, as if reminiscent of a mother's lullaby. There were a number of virtuoso performers of the kamancha who lived in different eras in Azerbaijan. For example, Mirza Mahammad Kamanchayi (16th century), Karachi Hajibey (18th century), Mashadi Malikmammad Agasalah oglu (1838-1909, although he was known as a tarzan, he also played kamancha, pipe and accordion instruments equally skillfully). In addition, we can mention the names of Mashadi Gulu Alizadeh, Mirza Bey, Rasim Shirinov, Shushali Buyukkishi Aliyev, Mashadi Jamil Karbalayi Aslan oglu Amirov, who lived in the second half of the 19th century and the beginning of the 20th century. From the beginning of the 20th century, Ismail Talishynski, Hafiz Mirzayev, Farhad Dadashov, Firuz Alizade, Gilman Salahov, Mutallim Novruzov, Talat Bakikhanov, Elman Badalov, Aligushad Mammadov, Habil Aliyev, Adalat Vazirov, Shafiga Eyvazova, Mirnazim Asadullayev, Munis Sharifov, Agazabrayil Abasaliyev, Fakhraddin Dadashov, Elnur Ahmadov, Elshan Mansurov, Vidadi Pashayev, Imamyar Hasanov and the names of other kamancha players can be mentioned. Habil Aliyev, who managed to make the listener think in the article "The role of master performers in the development of the performance possibilities of the kamancha instrument", Shafiga Eyvazova, who stood out for her lyrical, delicate and sincere performance, Fakhraddin Dadashov, who won the audience's sympathy with her technical mastery and fine musical sense and the performance characteristics of the performer-pedagogue Elnur Ahmadov, who is a sincere friend of his students, and their services in the development of kamancha performance were fundamentally investigated.

**Keywords:** *Azerbaijan, music, folk, instrument, instrument, kamancha, performer, Habil Aliyev, Shafiga Eyvazova, Fakhreddin Dadashov, Elnur Ahmadov, artist, master*

**Замина Наджафова**

**ПРИ РАЗВИТИИ ВОЗМОЖНОСТЕЙ ЛУКОВОГО ИНСТРУМЕНТА РОЛЬ МАСТЕРОВ-ИСПОЛНИТЕЛЕЙ**

Одним из интересных направлений азербайджанской музыкальной культуры является исполнительское искусство. Историческое значение исполнительского искусства, основанного на древних и богатых традициях народной музыки, очень велико. Из картин, миниатюр и других древних источников, выгравированных на исторических памятниках, видно, что исполнительское искусство всегда было любимым и уважаемым направлением искусства. Как известно, исполнительское искусство является одним из основных видов художественной творческой деятельности. В отличие от других видов искусства (живопись, скульптура и т. д.), музыкальное искусство необходимо создавать вторично. То есть для

реального существования музыки необходима деятельность второй творческой силы между автором и слушателем, которой является исполнитель. Если нет исполнителя, т. е. человека, исполняющего сочиненное музыкальное произведение (певца, музыканта), музыка остается безжизненной вещью. Музыка, имеющая историю, старую, как человечество, является одной из самых загадочных ценностей, открытых человечеством. человечество. Каждый народ нашел подходящий по его душе музыкальный инструмент для исполнения прекрасной музыки. Так было создано большое количество загадочных и волшебных музыкальных инструментов, одним из которых является кяманча, звук которой вибрирует струны человеческого сердца, словно напоминая материнскую колыбельную. Был целый ряд виртуозных исполнителей кяманчи. жили в разные эпохи в Азербайджане. Например, Мирза Магомед Каманчайи (16 век), Карачи Гаджибей (18 век), Мешади Маликмамед Агасала оглы (1838-1909, хотя и был известен как тарзан, но одинаково искусно играл на кяманче, свирели и аккордеоне). Кроме того, можно назвать имена Мешади Гулу Ализаде, Мирза бея, Расима Ширинова, Шушали Буюккиши Алиева, Мешади Джамиля Кербалаи Аслан оглы Амирова, живших во второй половине XIX и начале XX века. начало 20 века, Исмаил Талышинский, Хафиз Мирзаев, Фархад Дадашов, Фируз Ализаде, Гильман Салахов, Муталлим Новрузов, Талат Бакиханов, Эльман Бадалов, Алигушад Мамедов, Габиль Алиев, Адалят Вазиров, Шафига Эйвазова, Мирназим Асадуллаев, Мунис Шарифов, Агазабраил Абасалиев , Фахраддина Дадашова, Эльнура Ахмедова, Эльшана Мансурова, Видади Пашаева, Имамяра Гасанова и имена других кяманчистов, сумевших заставить слушателя задуматься в статье «Роль мастеров-исполнителей в развитии искусства». исполнительские возможности инструмента кяманча», Шафига Эйвазова, отличавшаяся лирическим, тонким и искренним исполнением, Фахраддин Дадашов, завоевавший симпатии зрителей своим техническим мастерством и тонким музыкальным чутьем, а также исполнительские качества исполнителя-педагога Эльнура Ахмедова. , который является искренним другом своих учеников, и их заслуги в развитии исполнения кяманчи были фундаментально исследованы.

**Ключевые слова:** *Азербайджан, музыка, народный, инструмент, инструмент, кяманча, исполнитель, Габиль Алиев, Шафига Эйвазова, Фахреддин Дадашов, Эльнур Ахмедов, художник, мастер*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 02.04.2024**
**Son daxilolma tarixi:12.05.2024**